# Azərbaycanım

Doğma anamız bizim:
Ey can Azərbaycanım!
Hansı böyük qüdrətlə,
Hansı böyük şöhrətlə
Sənin şücayətini,
Vəsf eləyim, ey Vətən?!
Başına gətirilən,
Böyük bəlaları mən,
Hansı meyarla ölçüm,
Qəlbim soyusun,Vətən?!
Zaman çox çalxalanıb,
Dövran dəyişib yaman,
Sənə kəmənd atıbdı,
İskəndər Makedoniyan
Həqiqəti tapdayıb,
Ağzına daş basıbdı,
Həqiqət carçıları
Səndən niyə küsübdü?!
Fars atını çapdırıb,
Haqsız fərman yapdırıb.
Ağqulaqla muştərək
Gələcəyə uzanan
Yolumuzu kəsərək,
Sənin bağrını yarıb.
Üstünə çox qışqırıb.
Turkmənçay və Gülüstan
Adı altda gizlənib,
Yapıb süni bir saziş,
Bu əsil bir sifariş
Sənə nə verdi Vətən?!
Bir daha parçalandın,
Müsibət gördün Vətən!
Biri çəkdi cənuba,
Biri dartdı şimala,
Xəncərlə ürəyini,
Eylədi para-para.
Qəlbimiz döndü qana,
Bizə çox vurdu yara.
Günümüz oldu qara...
Nə vaxtadək görəsən,
Namərdlərin ayağı
Üstümüzdən keçəcək?!
Gah rus imperiyası
Gah da nankor qonşular
Bizə qılınc çəkəcək?
Çəkib səni sınağa
Qərinələr, əsrlər,
Haqqını tapdamağa,
Dözmə, bir belə, yetər!
Sən duz-çörəkli oldun,
Sən pak məsləkli oldun,



Sən saf diləkli oldun,
Təmiz ürəkli oldun.
Cəhənnəmə sürdülər,
Oddan, alovdan keçdin.
Bəzən yağı düşməni
Ot, alaq kimi biçdin!
Bəzən ağır döyüşdə
Al qana döndü bağrın.
Geri çəkilmədin sən,
Çoxuna bəlli oldu,
Çəkdiyin acın,ağrın.
Parçalandın qayatək,
Hissələrə bölündün.
Yenə təslimolmadın.
Döyüşdün axıradək,
Silmək də istədilər,
Səni bu yer üzündən.
Fəqət, mümkün olmadı
Bu, ola bilməz, Vətən!..
Son anadək döyüşdün
Bac vermədin düşmənə,
Nankor qonşularına,
Neçə yol gərdin sinə.
Dolanıb keçdi illər,
Ötdü neçə qış-bahar,
Əl çəkmək istəmədi
Gözüqanlı yağılar,
Hiyləyə əl atdılar.
Birdən fürsət düşəntək,
Sancmağa çalışdılar.
Çox pusquda yatdılar.

Qoca, qadın qanmayıb,
Uşağa əl atdılar.
Nizədən keçirdilər
Bunu saydılar hünər.
İnanmaq olmayır ki,
Onları doğub ana.
Belə oğul yerinə
Kaş daş doğaydı ana!
İl ötdü, ay dolandı,
Düşmənini tanıdın,
Amma son sözü hələ
Deməmisən tam aydın.
Ancaq elə bilirəm,
Bir daha aldanmazsan
Məkrli qonşuya sən.
Düşmənə güzəştə etmə
Daha güzəştə getmə.
Olsan əgər unutqan,
Yenə uduzucaqsan!
İyirmi birinci əsrə
Möhkəm qədəmlərə get.
Oy düşmənin gözünü,
Yəni təbəddulat et!
İnanmanı itirmə –
Hər şeyi itirərsən.
İnan yalnız özünə!
Tapın yalnız özünə!
Ox düşmənin gözünə!
Qaytar geri gedəni
Zəngəzuru, Göyçəni,
Sarıyer, İravanı,

Kəlbəcəri, Laçını,
Qubadlı, Zəngilanı,
Cəbrayılı, Ağdamı!
Çox igid gedir əldən,
Çox kəslər gedib eldən.
Hücum tək Qarabağa,
Haray sal daşa, dağa.
Şuşaya yürüş edib,
Xankəndinə sanc bayraq!
Qəti qələbə qazan
Bu xalqdır sənə dayaq.
Haqqımız yoxdur bizim,
Qeyrətsiz yaşamağa,
Hücum et Qarabağa!
Nərə çəksin igidlər,
Hər biri bir igid, ər!
Çalınsın şeyrup səsi
Eşidilsin hər yerdə
“Qarabağ” şikəstəsi.
Ələnsin göylərdən nur
Səsin eşidilsin gur
Alnıaçıq, üzüağ
Səmalara yol açaq.
Sənin ulu adını,
Səmalara yüksəldək
Atəşfəşan düzəldək.
Erməni ayağını
Kəsək torpağımızdan
Sənki buna qadirsən
Ey ulu Azərbaycan!
Düşməni sal təşvişə,
Yox olsun bu əndişə
Cənnət olsun Yer üzü,
Mil düzü, Muğan düzü,
Qarabağ, Şirvan düzü.
Mən buna inanıram,
Sən hər şeyə qadirsən,
Qalx ayağa bir kərə!
Hamı desin “min əhsən!”
Sənin bütövlüyünçün,
Canımızdan keçməyə,
Düşmən qanı içməyə,
Səni xilas etməyə,
Lap ölümə getməyə
Biz həmişə hazırıq,
Doğma Azərbaycanım!
Sənə qurban bu canım!

**Nizami** Məmmədov

Kredo 2020.- 15 oktyabr.- S.7.